# Mənalı ömür yolu

**Doxsan il - bir şair ömrünün zirvələrə ucaldığı zamanı ifadə edir. Bu enişli-yoxuşlu həyat yolunu keçmək və həyatın sınaqlarından uğurla çıxmaq heç də hamıya nəsib olmur. Həyatın çətinliklərinə dözmək və taleyin hazırladığı imtahanlardan qalib çıxaraq öz əqidəsini, amalını dəyişmədən belə bir jurnalist ömrü yaşamaq Bilal Əhməd oğlu Ənsərovun qismətinə yazılmışdır. Bu ad Azərbaycanımızda və onun hüdudlarından kənarda, xüsusilə qardaş Türkiyədə çoxlarına tanışdır. Onun mətbuatda dərc olunmuş çoxsaylı məqalələri, şeirləri, publisistik yazıları ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Vətən həsrəti ilə Səməndər quşu tək alışıb yanır. Axşam-sabah bütün Qərbi azərbaycanlılar kimi, 36 il erməni tapdağı altında qalan qədim Oğuz elləri-ni, doğma kəndləri, füsunkar təbiətə malik olan Ləmbəlini düşünür. Bəzən ürəyi dilə gəlib çırpına-çırpına deyir: "Darıxma, gələcəyəm, mənim ayaq izlərim Terek çayının nəğməli sahillərində əbədilik qalacaq...**

Bilal Ənsər 1935-ci ildə Qərbi Azərbaycanın Barana (indiki Noyemberyan) rayonunun Ləmbəli kəndində dünyaya göz açmışdır.

Bilal Ənsərin atası Əhməd İkinci Dünya müharibəsinin odlu-alovlu illərində cəbhədə olub, almanlara qarşı mərdliklə vuruşub, ağır yaralanandan sonra doğma kəndlərinə qayıdır. Atası çox keçmir ki, 35 yaşında dünyasını dəyişir, ailə başsız qalır. Ata yoxluğu uşaqların böyüyü olan 8 yaşlı Bilala çox təsir edir. Uşaqların anası Hilal Musa qızı 26 yaşında dul qalır. Saçlarının yarısını ağ, yarısını qara hörə-hörə çox çətinliklə uşaqlarını ərsəyə çatdırır. Əməyə qatlaşır, zəhmətin qulpundan yapışır.

1949-cu il noyabrın 28-də erməni vandalları xəyanət toru hazırladı, onlar silah gücünə ləmbəlililəri yük vaqonlarına doldurub qarlı-çovğunlu günlərdə Göyçə mahalının Ağkilsə və Zod kəndlərinə sürgün etdi. Ermənilər düşünürdülər ki, ləmbəlilər çətin iqlim şəraitinə dözə bilməyib qırılacaqlar. Lakin el ağsaqqalı Bəhram Qamanov olmaqla bütün kənd ləmbəliləri doğma balaları tək qucaqladı, onları qəmqüssə ilə üzləşməyə qoymadı.

Çox keçmədən ləmbəlililər köç etdikləri Göyçə mahalından doğma kəndlərinə döndülər.



Bilalgil kəndlərinə qayıdanda gözlərinə inanmadılar. Evlərində xaricdən gətirilən saqqallı ermənilər yerləşdirilmişdi. Bilalgilin ailəsi əlacsız qalıb Mürşüdlü tayfasından olan Qaranın köhnə mal damında sığınacaq tapdı. Bütün bu hadisələr Bilal Ənsərin gözləri qarşısında baş vermişdi.

Bilalgilin ailəsi doğma kəndləri Ləmbəlinin kənarında torpaq sahəsi alıb yeni yurd saldılar, adını da Təzəkənd qoydular.

Günlərin bir günü Bilal əlinə çanta götürüb məktəbə yollandı. Təhsil aldığı illərdə elmi biliklərlə mükəmməl yiyələnməyə səy göstərdi. Təbiəti çox sevərdi, yaşıl otlar yorğanı, sal daşlar yastığı olardı, şərbət bulaqların başından ayrılmazdı, bəzən at da səyirdərdi.

Bilal Ənsər 1954-cü ildə orta məktəbi bitirdi. Bu, Ləmbəli kənd orta məktəbinin ilk buraxılışı idi. Təhsilini başa çatdırdıqdan sonra o, sovxozda işə girdi. Az-çox anasına köməyi dəydi. Sonra isə ordu sıralarına yollandı. Ordudan tərxis olunduqdan sonra qəlbinin hökmü ilə ADU-nun kitabxanaçılıq fakültəsinə daxil oldu.

Bilal Ənsər hələ orta məktəbdə təhsil alarkən bədii yaradıcılıqla da məşğul olurdu. Rayon qəzetində, "Pioner" jurnalında həmişə poetik ilhamla qələmə alınmış şeirləri çap olunurdu. Həmçinin "Sovet Ermənistanı" qəzetinin ştatdankənar müxbiri idi. Mütəmadi olaraq bu qəzetdə şeirləri və müxtəlif janrlarda olan yazıları dərc olunardı.

B.Ənsər 8 il Meyvəli kəndində müəllim kimi fəaliyyət göstərdi, neçə deyərlər, qəlbinin hərarətini, gözlərinin nurunu gənc nəslin təlim-tərbiyəsinə həsr etdi. 1971-ci ildə Bilal Ənsər Ləmbəli kənd orta məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini təyin edildi. O, həmişə pedaqoji kollektivin hörmətini qazandı. "Maarif əlaçısı" döş nişanına layiq görüldü.

1988-ci ildə Mixail Qorbaçovun və Moskvadakı digər ermənipərəst qüvvələrin xəyanəti ucbatından Qərbi Azərbaycandakı bütün soydaşlarımız kimi, ləmbəlililər də deportasiyaya məruz qaldı. Onlar zülm və işgəncə ilə ata-baba torpaqlarından zorla qovuldular. O, ailəsi ilə birlikdə Bakı şəhərində məskunlaşdı. Jurnalistlik fəaliyyətini davam etdirdi. 22 il "Vətən səsi" qəzetində çalışdı. Həsrətini çəkdiyi yurd yerləri ilə bağlı neçə-neçə şeirləri və yazıları dərc olundu. Qəzetdə işlədiyi dövrdə Türkiyənin Qars, İstanbul və İzmir şəhərlərində oldu, ana nənəsi Zöhrənin və onun bacısı Yetərin məzarlarını ziyarət etdi. Ömrünün doxsanıncı baharını yaşayan Bilal müəllimin 2 oğlu, 6 qızı, 13 nəvəsi və 2 nəticəsi var. O, şirin arzularla yaşayır. İstəyir ki, günlərin bir günündə nəvə və nəticələrinin əlindən tutub Qərbi Azərbaycana qayıtsın, doğma Ləmbəlisini qucaqlasın. O yerlərdə yenidən ömrünün bu çağında şeirlərini qələmə alsın, sədəfli sazı dilə gətirsin...

**Qədir ASLAN,**
**"Respublika".**

Respublika .- 2025.- 31 yanvar (№21).- S.5.